# RESPUBLİKA ELMİ PEDAQOJİ KİTABXANASI İNKİŞAF MƏRHƏLƏSİNDƏ

**Xədicə Namiq qızı Musayeva**
**Bakı Dövlət Universiteti**
**Kitabxanaşünaslıq kafedrasının magistrantı**

*Məqalədə son illərdə Respublika Elmi Pedaqoji Kitabxanasının fəaliyyəti və inkişaf istiqamətləri haqqında məlumat verilir.*

***Açar sözlər:****Respublika Elmi Pedaqoji Kitabxanası, Məlumat Bazası, tədbirlər planı.*

Dünyanın inkişaf etmiş ölkələrində cəmiyyətə göstərilən kitabxana xidmətinin, sənəd-informasiya təminatının təşkili səviyyəsi milli prioritetə malik məsələ kimi qiymətləndirilir. Kitabxanalara həm də vətəndaşların Пepecsiyaya azad müyəssərlik hüququnun reallaşdırıldığı bir məkan kimi də xüsusi önəm verilir. Belə bir yanaşma tərzi dünyanın BMT, YUNESKO və İFLA kimi ən nüfuzlu qurumlarının siyasətində və sənədlərində öz əksini tapmışdır.

Respublikamızda belə mühüm əhəmiyyətli, elmin inkişafı sahəsində müstəsna rol oynayan, informasiya mənbəyi hesab edilən kitabxanalardan biri də Respublika Elmi Pedaqoji Kitabxanasıdır. Təhsil Nazirliyi sistemində fəaliyyət göstərən ümumtəhsil, peşə məktəbləri, orta ixtisas təhsili müəssisələrinin kitabxana şəbəkəsinə məlumat biblioqrafiya və kitabxana xidmətini həyata keçirən elmi-metodik əlaqələndirmə mərkəzi olan Respublika Elmi Pedaqoji Kitabxanası öz fəaliyyətini dövrün tələbləri səviyyəsində qurmağa çalışan müəssisələrdəndir. Kitabxana Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin və Azərbaycan Respublikası Nazirlər Sovetinin "Azərbaycan SSR-də xalq maarifinin inkişaf etdirilməsi haqqında" 24 iyun 1982-ci il tarixli 335 №-li birgə qərarına əsasən ümumtəhsil məktəb kitabxanalarının fəaliyyətini əlaqələndirmək və metodik rəhbərliyi təmin etmək məqsədilə yaradılmışdır. REPK-nın fəaliyyətinin hüquqi elmi təminatını yaradan "Əsasnamə" ilk dəfə 1983-cu il martın 5-də keçmiş Maarif Nazirliyi tərəfindən, ikinci dəfə 1993-cü il aprelin 8-də, üçüncü dəfə isə Nizamnamə şəklində 2002-ci il mayın 3-də Azərbaycan Respublikasının Təhsil Nazirliyi tərəfindən təsdiq edilmişdir. "Azərbaycan Respublikası Maarif Nazirliyi Respublika Elmi Pedaqoji Kitabxanasının Əsasnaməsi" nin ümumi müddəalarında Пepecxananın elmi və sosial siması aşkarlanır.

Əsasnamədə deyilir: "1.1. Respublika Elmi Pedaqoji Kitabxanası (REPK) elmi sahəvi kitabxanadır. Respublikada təhsil işçilərinə, təhsil sistemində fəaliyyət göstərən müəssisələrə, nazirliyin kitabxana şəbəkəsinə





məlumat-biblioqrafiya xidmətini həyata keçirən elmi-metodik əlaqələndirmə mərkəzidir. REPK vahid elmi pedaqoji məlumat sisteminə daxildir. Respublikada elmi pedaqoji ədəbiyyatın əsas kitabsaxlayıcısıdır.". 1983-cü ildən fəaliyyət göstərən Respublika Elmi Pedaqoji Kitabxanası elmi-sahəvi kitabxanadır. O, ölkənin təhsil işçilərinə, təhsil sistemində fəaliyyət göstərən müəssisələrə, nazirliyin kitabxan şəbəkəsinə məlumat-biblioqrafiya xidmətini həyata keçirməklə yanaşı, eyni zamanda elmi-metodik və əlaqələndirmə mərkəzi rolunu oynayır. Həmçinin kitabxana işçiləri üçün treninqlər və seminarlar təşkil edir, məktəb kitabxanalarını elmi-metodik ədəbiyyatla təmin edir. Respublika Elmi Pedaqoji Kitabxanası ölkəmizdə 4 sahəvi kitabxanadan biri olaraq Təhsil Nazirliyinin birbaşa tabeliyində fəaliyyət göstərən yeganə kitabxanadır. Kitabxana öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, "Azərbaycan Respublikasının Təhsil Qanunu"nu və həmin qanunlardan irəli gələn qanunvericilik aktlarını, Təhsil Nazirliyinin qərar, əmr, sərəncam və göstərişlərini, kitabxana işi məsələlərinə dair elmi-metodik şuranın qərarlarını və Elmi Pedaqoji Kitabxananın "Əsasnamə"sini rəhbər tutur. [2]

Yaradıldığı dövrdən kitabxana öz fəaliyyətini ən çox ədəbiyyatın komplektləşdirməsinə, soraq-məlumat aparatının təşkilinə, elmi-metodik işə yönəltmiş, bir sıra təşkilati məsələlərin həllinə çalışmış və buna nail olmuşdur. Lakin maddi-texniki bazanın hədsiz dərəcədə məhdudluğu onun geniş fəaliyyət göstərməsinə, işin tələb olunan səviyyədə qurulmasına imkan vermirdi. Bu vəziyyətlə nə kitabxananın rəhbərliyi, nə də onun yaradıcı kollektivi heç vaxt razılaşa bilməzdilər. Buna görə də kitabxananın direktoru T.Ə. İsmixanova və kitabxananın digər məsul işçiləri 1985-ci ildə yeni istifadəyə verilmiş Respublika Mərkəzi Müəllimləri Təkmilləşdirmə və Yenidən Hazırlanması İnstitutuna məxsus doqquz mərtəbəli binanın 2-ci mərtəbəsinin REPK üçün ayrılmasını tələb etmiş və buna nail ola bilmişdilər. Artıq REPK 1985-ci ildən bu binada özünün bütün strukturlarını tam şəkildə bərpa etmiş və geniş fəaliyyətə başlamışdır. Kitabxana bir sıra texniki vasitələrlə təchiz edilmişdir [10].

REPK müstəqillik illərində oxuculara kitabxana-informasiya xidməti işi ilə yanaşı müstəqilliyimizə, xalqımızın mədəniyyətinə, tarixinə dair ədəbiyyatı ön plana çəkmişdir. Kitabxanada fəaliyyət göstərən «Komplektləşdirmə, elmi kitabişləmə və kitab mübadiləsi», «Elmi informasiya və biblioqrafiya», «Elmi metodika və təhlil», «Oxuculara xidmət», «Yeni informasiya texnologiyaları» şöbələri, eləcə də "Kitabxana fondu", "Oxucu zalı" informasiya istifadəçiləri olan oxucuların elmə, təhsilə, informasiyaya olan tələbatının ödənilməsində böyük rol oynayır.

Müstəqilliyimizin ilk illərində kitabxana qarşısına quruculuq işi istiqamətində oxuculara informasiya xidmətini yeni forma və üsullar əsasında təşkil etmək, biblioqrafik fəaliyyət üçün avtomatlaşdırılmış texnologiyaları

tətbiq etmək və s. vəzifələr qoymuşdur. 1998-ci il dekabrın 29-da Ümummilli lider Heydər Əliyev tərəfindən imzalanmış "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanununun qəbul olunması respublikamızda bütün kitabxanaların, eləcə də təhsil sahəsində fəaliyyət göstərən kitabxanaların fəaliyyətində köklü dəyişikliklər yaratdı [1]. Onu da qeyd etmək lazımdır ki, REPK Milli Məclis tərəfindən yaradılmış işçi qrupuna daxil edildiyindən bu qanunun hazırlanmasında yaxından iştirak etmişdir [10].

Təhsil Nazirliyi sistemində fəaliyyət göstərən ümumtəhsil, peşə məktəbləri, orta ixtisas təhsili müəssisələrinin kitabxana şəbəkəsinə məlumat biblioqrafiya və kitabxana xidmətini həyata keçirən elmi-metodik əlaqələndirmə mərkəzi olan Respublika Elmi Pedaqoji Kitabxanası öz fəaliyyətini dövrün tələbləri səviyyəsində qurmağa çalışan müəssisələrdəndir. REPK Təhsil Nazirliyi sisteminə daxil olan ümumtəhsil peşə məktəbləri və orta ixtisas təhsil müəssisələri kitabxanalarının fəaliyyətini özündə əks etdirən məlumat bazası yaratmışdır ki, bu da əvvəlki illərdə mövcud olan nöqsanları vaxtında aşkar edib aradan qaldırmağa imkan verir. Müasir informasiya əsrində dünya kitabxanalarına çıxmaq üçün elektron kataloqun yaradılması ən vacib məsələlərdən biridir. Bunu nəzərə alaraq kitabxana Azərbaycan, rus və xarici dillərdə olan fondlarını dünya kitabxanalarında tətbiq edilən Univesral Onluq Təsnifatı (UOT) əsasında yenidən təsnifləşdirmiş və bunun əsasında "Kitabxana-biblioqrafiya terminləri lüğəti"ni hazırlamışdır. REPK respublika məktəb kitabxanalarının vəziyyətini öyrənmək, onların işini istiqamətləndirmək, informasiya texnologiyası ilə təmin etmək üçün tövsiyələr hazırlamaq məqsədi ilə məktəb kitabxanalarının məlumat bazasını yaratmaq təşəbbüsünü irəli sürmüş və həyata keçirmişdir. Məktəb kitabxanalarında elektron kataloqun yaradılması məqsədilə REPK xüsusi proqram hazırlamış və Təhsil Nazirliyinə təqdim etmişdir. Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əmri ilə "Respublika Kitabxanalarının modernləşdirilməsi və davamlı inkişafı" Konsepsiya və Dövlət Proqramının hazırlanması üzrə Milli İdarələrarası Koordinasiya Şurası yaradılmış və bu şuranın fəaliyyətinin istiqamətləri üzrə Milli Koordinatorlar təyin edilmişdir. "Milli kataloqlaşdırma qaydaları və Milli formatın - AZMARK"-ın hazırlanması üzrə koordinator kitabxananın direktoru T.Ə.İsmixanova təsdiq edilmişdir. Bu iş vaxtında və müvəffəqiyyətlə başa çatdırılaraq Mədəniyyət və Turizm Nazirliyinə təqdim edilmişdir [6].

2002-ci ilin aprel ayında Azərbaycan Respublikası Prezidentinin katibliyi tərəfindən Ümummilli lider Heydər Əliyevin tapşırığı ilə 17 adda 34 nüsxə kitab hədiyyə olaraq Respublika Elmi Pedaqoji Kitabxanasına verilmişdir. Həmçinin fəaliyyətində mühüm dəyişikliklər ili hesab olunan REPK-nın bütün əməkdaşları ABŞ səfirliyinin nəzdində fəaliyyət göstərən "Kitabxanaçıların təlim və informasiya" mərkəzində "ingilis dili", "kompüterin əsasları və internet", "avtomatlaşdırma" və digər kurslarda olmuş, sertifikatlar əldə et-





mişlər. Bundan başqa, kitabxananın iki nəfər əməkdaşı "Azərbaycan Kitabxana İşinin İnkişafı Assosiasiyası" və "Avrasiya Fondu və Qafqaz ixtisasartırma Mərkəzi"nin birgə keçirdiyi "Kitabxana işinin aktual problemləri, dünya kitabxana xidməti təcrübəsi, müasir kitabxana informasiya texnologiyası, kitabxana proseslərinin kompüterləşdirilməsi, kitabxana menecmenti, iqtisadiyyatı, maliyyə işləri" mövzusunda keçirdiyi kurslarda iştirak etmiş və beynəlxalq sertifikat almışlar. REPK-nın direktoru T.Ə.İsmixanova "Amerika Kitabxanaçılıq Assosiasiyası" (AKA) və "Azərbaycanda Kitabxana İşinin İnkişafı Assosiasiyası" (AKİİA) ilə birlikdə 26-30 sentyabr 2002-ci il tarixində Yerevandakı "Amerika Universiteti"ndə "Universitet kitabxanalarının vətəndaş cəmiyyətində rolu" mövzusunda keçirdiyi beynəlxalq konfransda iştirak etmişdir.

REPK 2002-ci ildə görkəmli alim, respublika kitabxanaçılıq elminin banisi, əməkdar elm xadimi, professor Abuzər Xələfovun 70 illik yubileyini təntənəli qeyd etmiş və onun əsərlərinin sərgisini təşkil etmişdir [6].

Müstəqillik illərində "Respublika Elmi Pedaqoji Kitabxanasının işinin təkmilləşdirilməsi haqqında" Təhsil Nazirinin 03 may 2002-ci il 424 saylı əmrinə əsasən kitabxananın əsasnaməsində mühüm dəyişikliklər aparılmış, yeni nizamnamə hazırlanmış və təsdiq edilmişdir. Nizamnamənin "REPK-nın vəzifələri" adlanan maddəsində göstərilir: "İnternet" sistemi vasitəsilə respublika və xarici ölkələrin kitabxana və digər informasiya orqanları ilə məlumat mübadiləsini həyata keçirir".[3] Bu əmrə əsasən kitabxananın strukturunda dəyişiklik həyata keçirilmiş, informasiya-kommunikasiya texnologiyalarının tətbiqi ilə əlaqədar olaraq daha bir şöbə – "Yeni informasiya texnologiyaları şöbəsi" yaradılmışdır. Həmçinin 2002-ci ildən kitabxanada lokal kompüter şəbəkəsi yaradılmış, İRBİS-64 "Avtomatlaşdırılmış Kitabxana İnformasiya Sistemi" nin nümayiş versiyası əsasında elektron kataloqun yaradılmasına başlanılmışdır. Bu prosesin həyata keçirilməsi üçün bir neçə istiqamətdə işlər aparılmış, təkliflər hazırlanaraq Təhsil Nazirliyinə təqdim edilmişdir. Müvafiq proqramların əldə edilməsi, informasiyanın operativ ötürülməsi məqsədilə kitabxanadaxili şəbəkənin yaradılması işinə başlanılmışdır. Təhsil naziri Misir Mərdanovun "Respublikanın ümumtəhsil və peşə məktəbləri kitabxanalarının mövcud vəziyyəti, onu daha da yaxşılaşdırmaq tədbirləri haqqında" 23 yanvar 2006-cı il tarixli əmrinə əsasən, respublikada ilk dəfə məktəb kitabxanalarının fəaliyyətini öyrənmək məqsədilə kitabxana öz daxili imkanları hesabına İNTERBASE proqramı əsasında Təhsil Nazirliyi sistemində ilk dəfə olaraq elektron Məlumat (Verilənlər) Bazası yaratmışdır. REPK-nın metodistləri xüsusi anket formaları hazırlamış və nazirliyin sirkulyar məktubu ilə respublikanın bütün ümumtəhsil məktəb kitabxanalarına göndərmişdir. REPK-ya daxil olmuş anket formaları üzərində aparılan təhlil işlərinin nəticələrinə əsaslanaraq məktəb kitabxanalarının fəaliyyəti haqqında məlumat əldə edilir.

Bazanın təşkili respublikada məktəb kitabxanalarının işində olan çatışmazlıqların üzə çıxmasında, eləcə də bu kitabxanaların fəaliyyət imkanlarının müəyyənləşdirilməsində mühüm əhəmiyyət kəsb edir. Bu proqram vasitəsilə məktəb kitabxanalarının fəaliyyətini əlaqələndirmək və mövcud problemləri vaxtında həll etmək mümkündür. Məlumat Bazası əsasında "Təhsil Nazirliyi sisteminə daxil olan ümumtəhsil məktəb kitabxanalarının fəaliyyəti (2003)" adlı məlumat kitabı tərtib edilmişdir. Həmçinin kitabxananın əməkdaşları tərəfindən İFLA-nın (İnternational Federation of Library Associations – Kitabxana Assosiasiyaları Beynəlxalq Federasiyası) materialları əsasında üç dildə (ingilis, rus, Azərbaycan) "Məktəb kitabxanaları haqqında manifest" (2003-cü il) hazırlanmış və nəşr edilmişdir. Eyni zamanda "1-4 sinif şagirdləri üçün kitabxana - biblioqrafiya və informasiya bilikləri Proqramı" (2003), "Məktəb kitabxanalarında işin təşkili" (2003) adlı vəsaitlər də nəşr olunaraq məktəb kitabxanalarına göndərilmişdir. Bazada toplanmış faktiki informasiyalardan və ezamiyyələrin nəticələrindən məlum olur ki, respublika üzrə ümumtəhsil məktəb kitabxanalarında işin təşkilinə REPK tərəfindən yaxından köməklik göstərilir [10].

Eyni zamanda kitabxana internet şəbəkəsinə qoşulmuşdur. Yəni REPK təhsil sistemi kitabxanalarının informasiyalaşdırılmasını həyata keçirmək üçün 2002-ci ilin sonunda xüsusi layihə hazırlayıb Azərbaycanda fəaliyyət göstərən "Açıq Cəmiyyət İnistitutu"nun Yardım Fonduna (SOROS) təqdim etmiş və qrant udmuşdur. Layihəyə müvafiq olaraq kitabxanaya kompüter dəsti və avadanlıqlar verilmişdir. Elan edilmiş müsabiqədə udduğu qrant əsasında özünün – www.repk.aznet.orq adlanan WEB səhifəsini yaratmışdır. Hazırda isə kitabxana öz daxili vəsaiti hesabına yaratmış olduğu www.repk.az elektron ünvanında yerləşir [10].

Bu gün Azərbaycanda müxtəlif profilli kitabxanalar fəaliyyət göstərir. Təhsil Nazirliyinin böyük kitabxana şəbəkəsinə malik olan Respublika Elmi–Pedaqoji Kitabxanası da 4552 məktəb, 110 ixtisas təhsili müəssisəsi, 60 peşə məktəbi kitabxanaları üçün elmi-metodik mərkəz və əlaqələndirmə funksiyasını yerinə yetirir. Həmçinin, Təhsil Nazirliyi və onun kitabxanaları üzrə informasiya mərkəzi rolunu oynayır. REPK təhsil sistemində gedən bütün dəyişiklikləri və təkmilləşdirməni nəzərə alaraq ümumtəhsil məktəb kitabxanaları üçün "Əsasnamə" hazırlamış və Təhsil Nazirliyinin 08 fevral 2000-ci il tarixli, 133 nömrəli əmri ilə təsdiq edilərək, respublikanın bütün məktəb kitabxanalarına göndərilmişdir. REPK hər il olduğu kimi bu illərdə də metodik fəaliyyətini davam etdirmiş, təhsil sistemi kitabxanalarının işinin təkmilləşdirilməsi məqsədilə yeni metodik vəsaitlər hazırlamışdır: "Məktəb kitabxanaçısının tədris ili üçün Fəaliyyət Planı" (2002), "Kitabxana işinə dair normativ aktlar" (2002), "Məktəb kitabxanalarının qurulmasının texniki normaları" (2002) və bir sıra tövsiyə məktubları hazırlayaraq respublikanın məktəb kitabxanalarına paylamışdır [6].





Müstəqillik illərində respublikamızda gedən təhsil islahatları, həmçinin informasiya cəmiyyətinin tələbləri təhsil prosesinin informasiya təminatının təşkilində məktəb kitabxanalarının qarşısında olduqca mühüm vəzifələr qoymuşdur. Bu vəzifələr Azərbaycan Respublikası Prezidentinin 2004-cü il 21 avqust tarixli sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin informasiya və kommunikasiya texnologiyaları ilə təminatı proqramında (2005-2007)" öz əksini tapmışdır. Bu proqram təhsil işçiləri, o cümlədən təhsil kitabxanaları qarşısında yeni informasiya texnologiyalarından istifadə etməklə təhsilin keyfiyyətinin yüksəldilməsinə xidmət edən, dünya təhsil sisteminə inteqrasiya imkanı verən, vahid təhsil informasiya mühitini yaratmaq və əhalini informasiya cəmiyyəti quruculuğunda müvəffəqiyyətlə iştirak etməyə hazırlamaq, onlara informasiya mədəniyyətini aşılamaq vəzifəsini qoymuşdur. Bu proqramda həmçinin məktəblərdə elektron kitabxanaların yaradılması vəzifəsi də irəli sürülmüşdür. Bu proqramın həyata keçirilməsində mühüm işlər görən REPK Təhsil Nazirliyinin rəhbərliyi və köməyi ilə xüsusi plan hazırlayıb həyata keçirməyə başlamışdır. Kitabxana hər şeydən əvvəl məktəblərdə elektron kitabxanaların yaradılmasının elmi-metodik əsaslarının hazırlanmasında yaxından iştirak edir [4, s.122].

Bununla yanaşı, məlumdur ki, ölkəmizdə kitabxana işinin təşkili, maddi-texniki bazanın möhkəmləndirilməsi sahəsində müəyyən çətinliklər və problemlər mövcuddur. Bu məsələ respublika rəhbərliyinin diqqət mərkəzində saxlanılır və Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin "Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında" 20 aprel 2007-ci il tarixli Sərəncamı məhz kitabxana sahəsində mövcud olan geriliyi aradan qaldırmaq və bu sahənin inkişafını təmin etmək məqsədini daşıyır [9]. Azərbaycan Respublikasının Nazirlər Kabineti 20 aprel 2007-ci il tarixli, 2106 nömrəli sərəncamın üçüncü bəndinin icrasının təmin etmək məqsədilə "Məktəb kitabxanalarının maddi-texniki bazasının möhkəmləndirilməsi və müasir informasiya texnologiyaları ilə təchizatına dair Tədbirlər Planı"nın tətbiq edilməsi barədə Sərəncam imzalamışdır. Bu sərəncamın icrasını təmin etmək məqsədilə Təhsil Nazirliyi REPK ilə birlikdə Tədbirlər Planı hazırlayıb Prezident Aparatına təqdim etmişdir. Tədbirlər planında məktəb kitabxanaları ilə yanaşı, onların elmi-metodik təminatını həyata keçirən, həmçinin əlaqələndirmə funksiyasını yerinə yetirən Respublika Elmi Pedaqoji Kitabxanasının maddi-texniki bazasının möhkəmləndirilməsi, iş şəraitinin yaxşılaşdırılması, REPK ilə məktəb kitabxanaları arasında kitabxana-informasiya şəbəkəsinin yaradılması, məktəb kitabxanalarının yeni informasiya texnologiyaları və digər avadanlıqla təchiz edilməsi, kitabxanada "Elektron dərsliklər" fondunun yaradılması, müasir informasiya texnologiyaları ilə təchiz edilməsi və s. də nəzərdə tutulmuşdur. Həmçinin bu tədbirlər planında REPK-ya:

- məktəb proqramlarından çıxarılmış, yararsız və əhəmiyyətini itirmiş ədəbiyyatların fonddan silinməsi,

• məktəb kitabxana sisteminin modernləşdirilməsi və informasiya xidmətinin təkmilləşdirilməsi,

• məktəb kitabxanaları və rayon (şəhər) mərkəzi kitabxanaları arasında informasiya mübadiləsinin və kitabxanalararası abonement işinin təşkili,

• kitabxanaçılıq təcrübəsinə malik olan qeyri-ixtisas təhsilli məktəb kitabxanaçıları üçün ixtisasartırma kurslarının təşkil edilməsi,

• məktəb kitabxanaçılarının yeni informasiya texnologiyalarına yiyələnməsi üçün Respublika Elmi Pedaqoji Kitabxanasında treninqlərin təşkil edilməsi və s. vəzifələrin icrası həvalə edilmişdir.

Azərbaycan Respublikası Prezidentinin verdiyi bir sıra qərar və sərəncamlar REPK-nın fəaliyyətinin təkmilləşdirilməsi sahəsində mühüm rol oynayır. Onun 6 oktyabr 2008-ci il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı" təsdiq edilmişdir və REPK-nın modernləşdirilməsi, müasir informasiya texnologiyaları ilə təmin edilməsi və maddi-texniki bazasının möhkəmləndirilməsi proqramda xüsusi yer tutur. [8] Bu Dövlət Proqramının həyata keçirilməsi məqsədilə Nazirlər Kabinetinin 22 dekabr 2008-ci il tarixli 450s nömrəli sərəncamı ilə təsdiq edilmiş "Məktəb kitabxanalarının maddi-texniki bazasının möhkəmləndirilməsi və müasir informasiya texnologiyaları ilə təchizatına dair tədbirlər planı"nın təsdiq edilməsi haqqında sərəncam və bu sərəncamın icrası üzrə Təhsil Nazirliyinin Fəaliyyət Planı haqqında Təhsil Nazirinin 19 mart 2009-cu il tarixli 328 nömrəli əmrinin 2-ci bəndində bir sıra tədbirlərin həyata keçirilməsində REPK-nın vəzifəsi xüsusi qeyd edilir [7].

Azərbaycan Respublikası Təhsil Nazirliyinin Elmi-Metodik Şurasının Rəyasət Heyəti və bölmələrinin tərkibi barədə Azərbaycan Respublikası təhsil nazirinin 09 aprel 2012-ci il tarixli, 534 nömrəli əmrində aşağıdakıların həyata keçirilməsi REPK-nın direktoru T.İsmixanovaya tapşırılmışdır:

• Kitabxanada dərslik fondunun yaradılmasını təşkil etsin.

• Yeni dərsliklərin və tədris-metodik vəsaitlərin elektron kataloqunun yaradılmasını təmin etsin.

• Virtual dərslik kitabxanasının yaradılması barədə təkliflər hazırlayıb bir ay müddətində Təhsil Nazirliyinə təqdim etsin.

Bütün bu vəzifələrin icrasını təmin etmək məqsədilə REPK da öz növbəsində həm kitabxanada dərslik fondunun yaradılması, yeni dərsliklərin və tədris-metodik vəsaitlərin kataloqlarının yaradılması, həm də virtual dərslik kitabxanasının yaradılması barədə daxili əmrlər həyata keçirərək müvafiq tapşırıqlar vermişdir [10].

Göründüyü kimi, REPK-da modernləşdirmə və yeni informasiya -kommunikasiya texnologiyalarının tətbiqi sahəsində müəyyən işlər həyata keçirilmişdir. Lakin kitabxananın işini müasir standartlar səviyyəsinə çatdırmaq üçün hələ bir sıra problemlərin həll edilməsi, yeni elektron kitabxananın yəni virtual kitabxananın yaradılması və informasiya istifadəçilərinə təqdim





edilməsi üçün bir sıra proqramların həyata keçirilməsi gərəkdir. Prezident İlham Əliyevin məlum sərəncamından irəli gələn vəzifələri uğurla yerinə yetirməklə bu sahədə böyük nailiyyətlər qazanmaq olar.

## ƏDƏBİYYAT

1. "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının Qanunu // Kitabxanaşünaslıq və biblioqrafiya: elmi-nəzəri və təcrübi jurnal.-Bakı, BUN, 1999, №1, s.3-16.
2. Respublika Elmi Pedaqoji Kitabxanasının nümunəvi Əsasnaməsi, 1983-1993.
3. Respublika Elmi Pedaqoji Kitabxanasının Nizamnaməsi , 2002, 4 s.
4. Xələfov A.A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi. Bakı: Azərnəşr, 2006, 312 s.
5. İsmixanova T.Ə. Azərbaycan Respublikası Elmi Pedaqoji Kitabxanasının müstəqillik illərindəki fəaliyyəti // Kitabxanaşünaslıq və informasiya: elmi-nəzəri və praktiki jurnal. Bakı, BUN, 2010, №2, s.54-63.
6. Respublika Elmi Pedaqoji Kitabxanasının 2002-2010-cu illər hesabatları.
7. Fəaliyyət Planının Təsdiq edilməsi barədə Azərbaycan Respublikası təhsil nazirinin əmri // Azərbaycan müəllimi, 2009, 18 sentyabr.
8. "Azərbaycan Respublikasında kitabxana-informasiya sahəsinin 2008-2013-cü illərdə inkişafı üzrə Dövlət Proqramı"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin Sərəncamı // Bakı, 2008, 6 oktyabr.
9. Azərbaycan kitabxanalarının fəaliyyətinin yaxşılaşdırılması haqqında Azərbaycan Respublikası Prezidentinin sərəncamı. Bakı, 2007, 21 aprel.
10. www.repk.az
11. İdrisoğlu F. Respublika Elmi Pedaqoji Kitabxanasının 25 illiyi qeyd edildi // Azərbaycan müəllimi, 2008, 24 oktyabr.

**Pedagogical library of republic science in the stage of development**

**Xadija Musayeva**

**SUMMARY**

He have been given wide information about activities of the pedagogical library of republic science and directions of development in the article within last years.

**Республиканская научная педагогическая библиотека в период развития**

**Хадиджа Мусаева**

**РЕЗЮМЕ**

В данной статье отражены деятельность и пути совершенствования Республиканской научной педагогическая библиотеки в период развития.